# Köməkçi texnologiya

## Əsas mesajlar: Böyüdücülər və teleskoplar

### Birinci dərs: Giriş

- Böyüdücülər insanların müxtəlif obyektləri yaxından görmələrinə kömək edir.
- Teleskoplar insanların uzaqdakı obyektləri görmələrinə kömək edir.
- Görmə qabiliyyəti zəif olan bəzi şəxslər böyüdücülərdən və (və ya) teleskoplardan yararlana bilərlər.
- Görmə qabiliyyəti zəif olan şəxslər böyüdücüdən və ya teleskopdan istifadə etməzdən əvvəl bütün hallarda göz sağlamlığı üzrə mütəxəssis tərəfindən müayinə olunmalıdırlar. Belə ki, onların görmə qabiliyyətini digər bir müalicə vasitəsilə də yaxşılaşdırmaq mümkündür.
- Böyüdücülərin və teleskopların böyütmə gücləri müxtəlif ola bilər. TAP-a daxil edilənlərin böyütmə gücü 2x (obyekt iki dəfə böyük görünür) - 6x-dir (pbyekt altı dəfə böyük görünür). Şəxsin daha güclü məhsula ehtiyacı varsa, onu ☞ göz sağlamlığı üzrə mütəxəssisə yönləndirmək lazımdır.
- Böyüdücülərin və teleskopların müxtəlif şəxslərin ehtiyaclarına uyğun müxtəlif növləri vardır. Onlardan bəziləri sabit, digərləri portativdir. Bəziləri əllərin boş qalmasına imkan verir, digərləri isə əldə tutulandır.
- Bəzi şəxslər böyüdücülərin və (və ya) teleskopların birdən artıq növünə ehtiyac duyurlar.

### İkinci dərs: Birinci addım: Seçmək

#### Qiymətləndirmək

Şəxsin böyüdücüdən və ya teleskopdan yararlanmasının mümkün olub-olmadığını müəyyənləşdirmək üçün ilk növbədə, TAP görmə yoxlamasını həyata keçirin. Şəxs aşağıdakı hallarda böyüdücüdən və ya teleskopdan faydalana bilər:

- Uzaq görmə yoxlamasından keçməyibsə və göz sağlamlığı üzrə mütəxəssis tərəfindən təyin edilmiş eynəklə təmin olunubsa.
- Yaxın görmə yoxlamasından keçməyibsə və göz sağlamlığı üzrə mütəxəssis tərəfindən təyin edilmiş eynəklə təmin olunubsa.

**Xəbərdarlıq**

Əgər TAP görmə yoxlaması şəxsin böyüdücü və ya teleskopdan faydalana biləcəyini göstərirsə, şəxs yalnız göz sağlamlığı üzrə mütəxəssisi tərəfindən müayinə edildikdən sonra böyüdücü və ya teleskopları qiymətləndirmə formasından istifadə etməklə qiymətləndirmə həyata keçirin.

#### Seçmək

- Qiymətləndirmənin nəticələrinə əsasən şəxsi göz sağlamlığı üzrə mütəxəssisə yönləndirin və (və ya) onunla birlikdə böyüdücü və ya teleskop seçin. Aşağıdakıları nəzərdən keçirin:
  - Teleskoplar mərkəzi və ya periferal görmə sahəsində itki olan şəxslər üçün münasib deyil.
  - Dayaqlı böyüdücülər, optik böyüdücülər, boyunətrafı böyüdücülər və tənzimlənə bilən dayaqları olan lövhə böyüdücülər əllərindən istifadə edə bilməyən və ya əllərinin boş qalmasına ehtiyac duyan şəxslər üçün əlverişlidir. Əl teleskopları və böyüdücülər belə deyil.
  - Şəxs eynəkdən (oxumaq üçün və ya korrreksiyaedici eynək) istifadə edirsə, böyüdücüdən və ya teleskopdan istifadə edən zaman onu taxmalıdır.
- Sınaq böyütmə dərəcəsini müəyyən etmək üçün əvvəlcə şəxsin görmə problemi səbəbindən yerinə yetirməkdə çətinlik çəkdiyi bir fəaliyyəti seçin. Bu fəaliyyət üçün uyğun obyekti seçin.
- Düzgün səviyyəni tapanadək ən zəif böyütmə gücündən başlamaqla müxtəlif böyütmə güclərini sınayın.

### Üçüncü dərs: İkinci addım: Uyğunlaşdırmaq

- Tənzimlənə bilən dayaqları olan lövhə böyüdücülərin və boyunətrafı böyüdücülərin uyğunlaşdırılması mümkündür.

Digər böyüdücülər və teleskoplar belə deyil və buna görə də xüsusi uyğunlaşdırılmağa ehtiyacları yoxdur.

- Boyunətrafı böyüdücü ilə tənzimlənə bilən dayaqları olan lövhə böyüdücünü uyğunlaşdırmaq üçün şəxsdən aşağıdakıları etməsini istəyin:
  - Böyüdücünü obyektin üzərinə yerləşdirsin.
  - Böyüdücünü yavaş-yavaş obyektin üzərindən öz gözlərinə doğru qaldırsın.
  - Görüntü maksimum aydınlaşanadək davam etsin.
  - Böyüdücünü bu səviyyədə sabitləşdirsin.

**Dördüncü dərs: Üçüncü addım: İstifadə etmək**

- Bir şəxsə böyüdücüdən necə istifadə edəcəyinizi öyrədərkən, ona aşağıdakıları deyin:
  - Böyüdücüdən yaxşı işıqlandırmada istifadə edin.
  - Böyüdücünü obyektin üzərində tutaraq ən yaxşı böyütmə nöqtəsini tapın, sonra görüntü ən aydın olana qədər böyüdücünü yavaşca gözlərinə doğru qaldırın.
  - Əl böyüdücüsündən istifadə edirsinizsə, böyüdücünü bu hündürlükdə sabit saxlayın. Tənzimlənən dayaqlı və ya boyun ətrafı böyüdücüsündən istifadə edirsinizsə, onu bu hündürlükdə bərkidin.
  - Dayaq böyüdücüsündən istifadə edirsinizsə, böyüdücünü obyektin üzərinə qoyun, sonra aydın görüntü əldə etmək üçün başını böyüdücüyə lazım olduğu qədər yaxınlaşdırın.
- Bir şəxsə əl teleskopundan necə istifadə etməyi öyrədərkən, aşağıdakıları öyrədin:
  - Fokuslama halqasını çevirərək bir obyektə necə fokuslanmaq olar.
  - Teleskopla ətrafı nəzərdən keçirərək müxtəlif obyektləri necə tapmaq və izləmək olar.

**Xəbərdarlıq: Şəxs hərəkət edərkən teleskopdan heç vaxt istifadə etməməlidir.**

- Böyüdücülərin və teleskopların linzalarını yumşaq bir parça ilə təmizləyin və istifadə edilmədikdə qoruyucu qutuda saxlayın.

**Beşinci dərs: Dördüncü addım: İzləmək**

- İzləmə zamanı yoxlayın:
  - Böyüdücü və ya teleskop hələ də şəxsin ehtiyaclarını qarşılayırmı?
  - Şəxsin böyüdücü və ya teleskopdan istifadə ilə bağlı hər hansı problemi varmı?
  - Şəxsin böyüdücü və ya teleskopla bağlı hər hansı sualı varmı?
  - Şəxsin böyüdücü və ya teleskopdan necə istifadə etdiyini müşahidə edin.
  - Böyüdücünün və ya teleskopun vəziyyətini yoxlayın.
- İzləmə tədbirlərinə daxildir:
- Böyüdücü və ya teleskopdan istifadə qaydası ilə bağlı əlavə təlim vermək.
- Fərqli məhsulu və ya fərqli böyütmə dərəcəsini sınaqdan keçirmək.
- Böyüdücünü və ya teleskopu dəyişdirmək.
- Şəxsi göz sağlamlığı üzrə mütəxəssisə və ya digər xidmətə yönləndirmək.